

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 71 (20.972)

19 aprel 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Səudiyyə Ərəbistanı Krallığı Sərhəd Xidmətinin baş direktoru Zumeyyim bin Cuveybir Əs-Səvvatın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında mövcud dostluq münasibətlərinin önəmini qeyd etdi. Siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu vurğulayan Prezident İlham Əliyev mədəniyyət və humanitar sahələrdə də əməkdaşlığımızın razılıq doğurduğunu bildirdi. Sərhəd xidmətləri arasında da əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı bu sahədə birgə fəaliyyət, qarşılıqlı təcrübə və informasiya mübadiləsinin ölkələrimizin təhlükəsizliyinin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Səudiyyə Ərəbistanı Krallığı Sərhəd Xidmətinin baş direktoru Zumeyyim bin Cuveybir Əs-Səvvat ölkəmizə ötənilki səfərini məmnunluqla xatırladı. Zumeyyim bin Cuveybir Əs-Səvvat azərbaycanlı həmkarları ilə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri barədə müzakirələr apardıqlarını vurğuladı.

## Azərbaycan tarixinin Heydər Əliyev erası



Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsi tələbələrinin iştirakı ilə "Azərbaycan tarixinin Heydər Əliyev erası" mövzusunda açıq dərs keçilmişdir. Muzeyin direktoru Ramil Orucəliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli Sərəncamı ilə Naxçıvan şəhərində yaradılan muzeyin ümummilli liderimizin həyat və fəaliyyətinin təbliği istiqamətində gördüyü işlərdən bəhs etmiş, 4 mindən çox eksponatın sərgiləndiyi muzeyə yeni daxil olan nadir tarixi sənəd və fotoşəkillər, incəsənət əsərləri haqqında məlumat vermişdir.

Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərli ümummilli lider Heydər Əliyevin dövlət müstəqilliyinin qorunması, Azərbaycanın beynəlxalq imicinin formalaşması, məqsədyönlü iqtisadi-siyasi strategiyanın müəyyənləşdirilməsindəki əvəzsiz xidmətlərindən danışmışdır.

Ümumi tarix kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlqar Kəngərli mövzu ilə bağlı məruzə edərək dahi şəxsiyyət, dünya şöhrətli siyasətçi, müstəqil Azərbaycanın xilaskarı və qurucusu, Azərbaycan diasporunun yaradıcısı Heydər Əliyevin siyasi fəaliyyətindən bəhs etmişdir. Müstəqilliyimizin təminatçısı ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin dönməzliyi və əbədiliyinin təmin olunması uğrunda yorulmaz mübarizəsi, ölkəmizdə hüquqi, demokratik və dünyəvi dövlət qurulması istiqamətində həyata keçirdiyi islahatlar barədə məlumat verən məruzəçi Azərbaycan tarixində "Heydər Əliyev erası" kimi səciyyələndirilən bu inkişaf yolunun ayrı-ayrı mərhələlərindən danışmışdır.

Sonra açıq dərsin iştirakçıları muzeydəki eksponatlarla tanış olmuşlar.

**Mehriban SULTAN**

## Culfa rayonundakı bələdiyyələrin fəaliyyəti müzakirə olunub

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Culfa Rayon İcra Hakimiyyəti ilə birlikdə keçirdiyi seminar-müşavirə bələdiyyələrin fəaliyyətinin əlaqələndirilməsinə, yerli özünüidarəetmə orqanları arasında əməkdaşlığın gücləndirilməsinə, bələdiyyə qanunvericiliyinin öyrənilməsi və tətbiq edilməsinə, bələdiyyələrdə kargüzarlıq işlərinin qanunvericiliyin tələblərinə uyğun qurulmasına həsr olunmuşdur. Seminar-müşavirəni giriş sözü ilə açan Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev belə tədbirlərin əhəmiyyətindən bəhs etmişdir.*



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, ikinci dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev bildirmişdir ki, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş Azərbaycanda ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ictimai həyatın bütün sahələrində köklü islahatlar həyata keçirilmişdir. Bunlardan biri də bələdiyyələrin yaradılmasıdır. Ötən müddət ərzində formalaşmaq prosesini başa çatdıran, müəyyən təcrübə qazanan belə qurumlara Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən mütəmadi olaraq metodik köməklik göstərilir.

Qeyd olunmuşdur ki, Culfa rayonu üzrə 14 dəfə müxtəlif mövzular üzrə hüquqi maarifləndirmə tədbirləri keçirilmişdir. Belə seminar-müşavirələrdə bələdiyyələrin fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı söhbətlər aparılmış, yerli özünüidarəetmə orqanları arasında əməkdaşlığın gücləndirilməsi yolları göstərilmiş, bələdiyyə qanunvericiliyinin öyrənilməsi və tətbiq edilməsi, bələdiyyələrdə kargüzarlıq işlərinin qanunvericiliyin tələblərinə uyğun qurulması üçün tövsiyələr verilmişdir.

"Rayonda fəaliyyət göstərən bələdiyyələrdə qanunvericiliyin təmin olunması və kargüzarlığın müvafiq normativ aktların tələblərinə uyğun aparılmasının öyrənilməsi məqsədilə 2009-2013-cü illər ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 17 dəfə yoxlama keçirilmiş və aşkar olunan nöqsanların aradan qaldırılması üçün bələdiyyələrə hərtərəfli metodik köməkliklər göstərilmişdir", – deyən nazir bildirmişdir ki, verilmiş tövsiyə və təkliflərə baxmayaraq, hələ də bələdiyyələrin bir neçəsinin fəaliyyətində nöqsanlar və çatışmazlıqlar qalmaqdadır.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasında aparılan abadlıq və quruculuq işləri çərçivəsində muxtar respublikada fəaliyyət göstərən bələdiyyələrə müasir iş şəraiti yaradılmışdır. Məhz bu diqqət və qayğının müqabilində rayonda fəaliyyət göstərən bələdiyyələr üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, qeyd olunanlardan nəticə çıxarmalı və fəaliyyətlərini qanunvericiliyin tələblərinə uyğun təşkil etməlidirlər.

Sonda bələdiyyə üzvlərini maraqlandıran suallar cavablandırılmışdır.

## Növbəti açıq ürək əməliyyatları aparılır

***Ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi, aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili artıq ənənə halını almışdır.***

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanasının, Mirqasımov adına Respublika Klinik Xəstəxanasının, Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun və digər səhiyyə müəssisələrinin yüksəkixtisaslı həkim briqadaları tərəfindən təkcə ötən il sosial layihələr çərçivəsində 319 cərrahi əməliyyat aparılmış, 29 nəfər xəstənin ürək damarlarına stent qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Mərkəzi Neftçilər Xəstəxanasının 22 nəfərlik heyəti aprelin 15-də Naxçıvana gəlmişdir. Xəstəxananın həkim-cərrahlarından Rəşad Mahmudovun, Seymur Musayevin, Natiq Mirzəyevin, Kənan Məmmədovun, anestezioloqların, əməliyyat, reanimasiya, palata tibb bacılarının təmsil olunduğu heyət son 4 gün ərzində Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində əvvəlcədən qeydiyyata götürülmüş 12 kardioloji xəstədə açıq ürək, 2 xəstədə periferik damar əməliyyatları aparmış və risk faktorlu xəstələri müxtəlif kardioloji müayinələrdən keçirmişdir. İki xəstəyə aortik bioprotez qapaq qoyulmuş və eyni zamanda aortokoronar şuntlama əməliyyatı icra olunmuşdur. Anadangəlmə ürək qüsurlu 2 uşaq üzərində (1,3-2 yaş) aparılan açıq ürək əməliyyatı da uğurla başa çatdırılmış, 1 xəstəyə isə aortal qapaq qoyulmuş və onlar tam sağalma ilə evə buraxılmışlar. Kardioloji ambulator müayinə və müalicələr zamanı xəstələrə tibbi məsləhət və tövsiyələr verilmişdir.

Həkim briqadası açıq ürək əməliyyatları ilə yanaşı, xəstələrdə müşahidə olunan gizli ürək xəstəlikləri və onların risk amillərini araşdırır, ürək xəstəliyi aşkarlanan xəstələrin sonrakı müayinə və müalicələrini diqqət mərkəzində saxlayır.

Aksiya çərçivəsində yerli həkimlər də bütün cərrahi əməliyyatlarda iştirak edirlər. Aksiyada 20 açıq ürək əməliyyatı aparılması nəzərdə tutulmuşdur. Bu gün isə aksiya çərçivəsində ürək-damar xəstəliklərinin aktual problemlərinə həsr olunmuş regional beynəlxalq elmi-praktik konfrans keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Müsabiqənin test mərhələsi aprelin 24-də yekunlaşacaq



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada VI-VII təsnifata uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün bu il mart ayının 7-də elan olunan müsabiqənin test mərhələsinə start verilib. İlk test imtahanları aprelin 17-də səhər və günün ikinci yarısında keçirilib.

Komissiyanın sədri Etibar Musayev mətbuata açıqlamasında bildirib ki, 39 dövlət orqanından 366 vakant vəzifə üzrə elan olunan müsabiqədə iştirak etmək üçün 304 namizəd komissiyaya sənəd təqdim edib.

VI təsnifat üzrə 44 vəzifəyə 159, VII təsnifat üzrə 322 vakant vəzifəyə 145 namizədin sənəd verdiyi müsabiqənin test mərhələsində namizədlərə qanunvericilik üzrə 40, məntiqi təfəkkürün yoxlanması üzrə 30, dünyagörüşün yoxlanması üzrə 15, informasiya texnologiyaları sahəsində biliklərin yoxlanması üzrə 15 sual olmaqla, 100 sual təqdim olunub.

Qeyd edək ki, test imtahanları aprelin 24-də yekunlaşacaq.

## Miqrasiya sahəsində maarifləndirici tədbirlər davam etdirilir

***Dünən Kəngərli rayonunda Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin təşkilatçılığı ilə miqrasiya sahəsində hüquqi maarifləndirmə tədbiri keçirilib. Tədbiri giriş sözü ilə Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Səxavət Həsənov açıb.***

Tədbirdəki çıxışında aparılan uğurlu iqtisadi siyasət nəticəsində muxtar respublikamızda həyat səviyyəsinin yüksəldiyini və bu diyara üz tutan əcnəbilərin sayının əhəmiyyətli dərəcədə artdığını bildirən Dövlət Miqrasiya Xidmətinin əməkdaşı Şahin Nəbiyev ölkə ərazisində yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının miqrasiya sahəsində mövcud qanunvericiliyi ilə məlumatlandırılması və bu istiqamətdə tədbirlərin mütəmadi təşkilinin zəruriliyini vurğulayıb. Şahin Nəbiyev daha sonra Dövlət Miqrasiya Xidmətinin fəaliyyəti, miqrasiya proseslərinin tənzimlənməsində həyata keçirilən tədbirlər, qanunvericiliyə edilmiş müvafiq əlavə və dəyişikliklər barədə iştirakçılara ətraflı məlumat verib.

Sonra xidmətin əməkdaşlarından Tural Bayramovun, Hacı Məmişovun, Samir Sadiqovun çıxışları olub. Çıxışlarda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı, onlara Azərbaycan Respublikası ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazənin verilməsi qaydalarından danışılıb.

Miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozan şəxslərin məsuliyyəti barədə də söhbət açılan tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**




# İlk təəssürat burdan yaranır: Naxçıvan Beynəlxalq Hava Limanı

***Naxçıvan – bu əsrarəngiz diyar haqqında bir çox insanlar kimi, mənim də ilk təəssüratım məhz Naxçıvan Beynəlxalq Hava Limanından yaranmışdı. 2009-cu ilin isti bir yay günündə Bakıdan qalxan təyyarəmiz Naxçıvan Beynəlxalq Hava Limanına enərkən diqqətimi ilk çəkən Haçadağ olmuşdu. Naxçıvanın rəmzinə çevrilmiş bu vüqarlı dağı görmək bu diyarın əsrarəngizliyi və əzəmətliliyi haqqında ilk fikrin formalaşması üçün bir başlanğıc nöqtəsidir. Bəlkə də, XX əsrin 70-ci illərində – xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə qurulan Naxçıvan aeroportunun yerinin seçilməsi zamanı strateji və coğrafi amillərlə yanaşı, elə bu simvolik amil də xüsusi nəzərə alınmışdı. Naxçıvan Beynəlxalq Hava Limanındakı səliqə-sahman, nizam-intizam isə gələcəkdə daha yaxından tanıyacağım Naxçıvanın ümumi həyatını və burada mövcud olan yüksək ictimai mədəniyyəti nümayiş etdirirdi.***




XX əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan aeroportu təkcə bu qədim diyara ölkənin və dünyanın müxtəlif yerlərindən gələn insanlar üçün ilk təəssürat nöqtəsi rolunu oynamırdı. Onda Naxçıvandakı bu hava limanı əli hər yerdən üzülmüş naxçıvanlıların Azərbaycanın əsas ərazisi ilə əlaqə saxlamasının yeganə vasitəsi idi. Naxçıvanın Azərbaycanla əlaqəsini təmin edən bu hava limanı həm də tariximizin qızıl səhifələrinə şahidlik etmişdi. Bu hava limanı 1990-cı il iyul ayının 22-də böyük xilaskar Heydər Əliyevin Bakıdan Naxçıvana gəlişinin də şahidi olub, 1993-cü il iyun ayının 9-da Heydər Əliyev dühasının Vətənimizi xilas etmək üçün Naxçıvandan Bakıya qayıdışının da.

Bu hava limanının tikilməsi və bir neçə dəfə əsaslı şəkildə yenidən qurulması tarixlərinə nəzər salsaq, birmənalı şəkildə onu ümummilli lider Heydər Əliyevin naxçıvanlılara ən strateji hədiyyəsi və Azərbaycanın quruculuq tarixinin şah əsərlərindən biri adlandırmağa imkan verər.

Təsadüfi deyildir ki, ulu öndər 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən bu hava limanının Naxçıvan üçün nə qədər böyük əhəmiyyət daşıdığını nəzərə alaraq onun uçuş-enmə zolağının yenidən qurulması təşəbbüsünü irəli sürmüş və bu iş qısa müddətdə həyata keçirilərək uzunluğu 3300 metr olan uçuş-enmə zolağı istifadəyə verilmişdi. Yenə də ümummilli lider Heydər Əliyevin tapşırığı ilə 2002-ci ilin oktyabrında Naxçıvan hava limanının yenidən qurulmasına başlanılmışdı. Ən müasir tələblər səviyyəsində qurulan aeroporta 2004-cü ilin aprel ayında beynəlxalq status verilmişdir. 2004-cü ilin may ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Naxçıvan Beynəlxalq Hava Limanı nəinki Azərbaycanın digər regionları, ümumilikdə, dünyanın müxtəlif ölkələri ilə Naxçıvanın hava nəqliyyatı əlaqəsini təmin edir.

Azərbaycan dövlətinin günü-gündən qüdrətlənməsi, sürətli iqtisadi inkişafı onun dünya dövlətləri birliyindəki yerini müəyyən etdiyi kimi, ölkəmizin coğrafi-strateji mövqeyinin olduqca əlverişli olması Azərbaycanın dünyanın hava nəqliyyatı sistemindəki rolunu və yerini daha da gücləndirir. Naxçıvan Muxtar Respublikası bu iqtisadi inkişafın ön sıralarında gedir və onun strateji mövqeyi nəinki region ölkələrinin, hətta Avropanın və Asiyanın inkişaf etmiş bir sıra dövlətlərinin diqqətindədir. Bu mənada Naxçıvan Beynəlxalq Hava Limanının müasir standartlar səviyyəsində qurulması əsas məsələlərdən biri idi. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, son illərdə Naxçıvana gələn xarici ölkə diplomatlarının, nümayəndələrinin, müxtəlif beynəlxalq qurumların təmsilçilərinin sayı artıq onlarla deyil, yüzlərlə ölçülür. Bakıda keçirilən beynəlxalq humanitar forumlar, Naxçıvanda təşkil edilən beynəlxalq səviyyəli tədbirlər və idman yarışları zamanı Naxçıvana böyük marağın olması qeyd etdiklərimizi bir daha təsdiqləyir. Elə bu səbəbdəndir ki, Naxçıvan Beynəlxalq Hava Limanının maddi-texniki bazasının gücləndirilməsinə, aerovağzalın daha da müasirləşdirilməsinə xüsusi diqqət yetirilir.

“Naxçıvan Beynəlxalq Hava Limanı üçün yeni inzibati binanın inşası son illərdə ölkəmizdə bu istiqamətdə həyata keçirilən ən böyük layihələrdən birinin, sadəcə, birinci mərhələsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin aprel ayının 7-8-i tarixlərində muxtar respublikamıza səfəri zamanı yeni inzibati binanın istifadəyə verilməsini həm də Naxçıvanımızın mülki aviasiya tarixində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirmək olar”. Naxçıvan Beynəlxalq Hava Limanında yaradılan şəraitlə, yeni inzibati bina ilə tanış olarkən hava limanının direktoru Mənşur Gülməmmədov belə dedi.

Son illərdə müxtəlif ölkələrin aviakompaniyalarının Naxçıvana artan marağından da danışan hava limanının direktoru Türkiyə və Ukrayna aviakompaniyaları ilə bu istiqamətdə aparılan danışıqlar haqqında da məlumat verdi. Yaxın gələcəkdə Naxçıvan-Ərzurum-Naxçıvan və Naxçıvan-Kiyev-Naxçıvan istiqamətlərində aviareyslərin təşkilinin mümkün olacağını deyən müsahibimiz ölkədaxili reyslərin sırasına daha birinin – Qəbələ-Naxçıvan-Qəbələ aviareysinin artıq əlavə olunduğunu da diqqətə çatdırdı. Hava limanının direktoru qeyd etdi ki, bu istiqamətdə uçuşlar may ayından həyata keçiriləcək. Artıq bu reysə bilet satışına başlanılmışdır.



Hava limanının yeni inzibati binası ilə tanışlıq zamanı işçilərin sevincini açıq-aydın duymaq olurdu. Qeyd edək ki, inşasına ötən ilin mart ayında başlanılan bina ən müasir səviyyədə tikilmişdir. Ümumilikdə, 53 iş otağının yerləşdiyi yeni binada həmçinin hava gəmilərinə texniki xidmət sahəsi, daşımaların təşkili, aviasiya təhlükəsizliyi, hava hərəkətinin idarə edilməsi, aviasiya-meteorologiya və digər aidiyyəti xidmətlər üçün hərtərəfli şərait vardır. Binada akt və konfrans zalları, həmçinin işçilərin xarici dillərə yiyələnmək üçün tədris otağı yaradılıb ki, bu da hava limanında çalışan işçilərin xidmət səviyyəsinin daha da yüksəldilməsinə hesablanmış addımdır.

Yeni yaradılan infrastrukturun sərnişinlərə xidmətin səviyyəsinə və aeroport kollektivinin işinə necə təsir göstərəcəyi ilə bağlı Naxçıvan Beynəlxalq Hava Limanının Daşımaların Təşkili Xidmətinin rəisi Xanməmməd Vəliyev fikirlərini bizimlə bölüşdü: “Cənab Prezidentin iştirakı ilə Naxçıvan Beynəlxalq Hava Limanının yeni inzibati binasının istifadəyə verilməsi bizi çox sevindirdi. Yeni inzibati binada ən yüksək səviyyədə şərait yaradılmışdır. Əvvəlki inzibati binadan idarə heyətinin buraya köçməsi işlərin birinci mərhələsidir. Belə ki, əvvəllər idarə heyətinin fəaliyyət göstərdiyi binada yenidənqurma işləri aparılacaq və sərnişinlərin gediş-gəlişinin daha rahat bir şəkildə təşkili üçün mükəmməl şərait yaradılacaqdır. Əgər hal-hazırda hava limanı saatda 200-300 sərnişini qarşılayıb yola salmaq imkanına malikdirsə, yenidənqurma işlərindən sonra 400-500 sərnişini rahat bir şəkildə qarşılayıb yola sala biləcəyik”.

Naxçıvan Beynəlxalq Hava Limanının nəqliyyat infrastrukturunun möhkəmləndirilməsi ilə bağlı həyata keçirilən ardıcıl tədbirlər çərçivəsində aeroportun fəaliyyətini daha da müasirləşdirmək məqsədilə müxtəliftəyinatlı yeni maşın-mexanizmlər alınmışdır. Bu texnikaların arasında təyyarə yanacağı daşıyan, yanacaqvuran, sərnişinlərin rahatlığı üçün nəzərdə tutulan avtobuslar, eləcə də sağlamlıq imkanları məhdud sərnişinləri hava gəmilərinə mindirmək və qarşılamaq üçün xüsusi avadanlıqla təchiz edilən maşınlar vardır. Yeni alınan avtotrap və avtokonveyerlər, qoşqular və təyyarədartıcısı, yük terminalı üçün avtoqaldırıcılar, təyyarə mühərrikini hava ilə işə salan aqreqat, hava gəmilərini buzlaşmaya qarşı hazırlayan və uçuş-enmə zolağını qardan və buzdan təmizləmək üçün nəzərdə tutulan maşınlar da yüksək texniki göstəricilərə malikdir. Burada yaradılan şərait və ən son texnoloji nailiyyətlərin tətbiqi sərnişinlərə nümunəvi xidmət göstərməyə imkan verir.

Qeyd edək ki, Naxçıvan Beynəlxalq Hava Limanında aparılacaq yenidənqurma işləri aerovağzal binasında birinci və ikinci mərtəbələrin gəliş və təyyarələrə minik zalları üçün ayrılmasına şərait yaradacaq. Aerovağzal binasının yenidən qurulması və bərpası çərçivəsində həyata keçirilən bu layihədə sərnişinlərin hərəkətinin rahatlığını təmin etmək üçün eskalatorun, sağlamlıq imkanları məhdud, yaşlı vətəndaşların istifadəsi üçün lift və digər zəruri sistemlərin quraşdırılması nəzərdə tutulmuşdur. Qurulacaq yeni teleskopik traplar isə Naxçıvan Beynəlxalq Hava Limanının tarixində bir ilk olacaq. Belə ki, əvvəllər idarə heyəti üzvlərinin yerləşdiyi ikinci mərtəbədən teleskopik traplar vasitəsilə hava gəmilərinə miniklər təşkil ediləcək. Bununla da, Naxçıvan Beynəlxalq Hava Limanında sərnişin daşımaları ilə bağlı xidmətin səviyyəsini daha da yüksəltmək, eləcə də təyyarə uçuşlarının təhlükəsizliyini və aeroportun fəaliyyətini dünya standartlarına uyğunlaşdırmaq istiqamətində çox mühüm addım atılmış olacaq.



*Bütün bunlar isə Naxçıvanın bugünkü sürətli inkişafının doğurduğu zərurət, gələcək tərəqqisinə gedən yolun vacib elementləridir. Cənab Prezidentin sözləri ilə ifadə etsək:* ***“Biz gələcəyə böyük ümidlərlə, nikbinliklə baxırıq. Bizim gələcəyimiz daha da gözəl olacaqdır. Sözün düzü, hesab edirəm ki, bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri – quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır”.***

Elnur KƏLBİZADƏ

---

*Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyində Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi ilə birgə daşınmaz əmlakın və daşınmaz əmlakın istismarı zamanı mülki məsuliyyətin icbari sığortası sahəsində görülmüş işlər və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilmişdir.*

## İcbari sığortalar sahəsində vəzifələr müzakirə olunmuşdur



Müşavirədə Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov çıxış etmişdir. Qeyd olunmuşdur ki, “İcbari sığortalar haqqında” Azərbaycan Respublikası Qanununa əsasən, ölkəmizdə daşınmaz əmlakın və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortasına nəzarət işləri Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinə həvalə olunmuşdur. Bu məqsədlə Naxçıvan Muxtar Respublikasında bu kateqoriyadan olan icbari sığorta müqavilələrinin bağlanılması üzrə verilmiş tapşırıqların yerinə yetirilməsi istiqamətində Dövlət Baş Sığorta Agentliyi Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi ilə birgə nəzarət tədbirlərinin artırılması, maarifləndirici görüşlər keçirilməsi istiqamətində öz səylərini artırmalıdır. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikasında 2013-cü ildə icbari sığortalar üzrə görülmüş tədbirlər nəticəsində sahibkarlara məxsus daşınmaz əmlakın icbari sığortası üzrə 849 müqavilə, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə 391 müqavilə bağlanılmışdır. Ümumilikdə, hər iki sığorta növü üzrə sahibkarlarla 1240 müqavilə bağlanılmışdır. Cari ildə də bu istiqamətdə görülən işlərin nəticəsi olaraq sığorta müqavilələrinin bağlanılması davam etdirilməkdədir. Lakin bunlara baxmayaraq, göstərilən icbari sığorta növləri üzrə bəzi sahibkarların vaxtında sığorta müqavilələri bağlamaqdan yayınmaları halə də müşahidə edilməkdədir. Belə hallara yol verilməməsi və sığorta müqavilələrinin vaxtında bağlanılaraq sahibkarların öz üzərlərinə düşən vəzifələri yerinə yetirməsini təmin etmək üçün hər iki dövlət qurumu bu işə diqqəti daha da artırmalı, izahat və maarifləndirmə işləri genişləndirilməlidir.

Müşavirədə çıxış edən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Ehtiram Məmmədov qanuna uyğun olaraq, Fövqəladə Hallar Nazirliyi tərəfindən hər iki icbari sığortalar üzrə müqavilələrin bağlanılmasına nəzarətin gücləndirilməsinin zəruriliyini qeyd etmiş, bu sahədə nazirliyin üzərinə düşən vəzifələrdən danışmışdır.

Müşavirədə şəhər, rayon Dövlət Sığorta agentliklərinin direktorları və Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin rəisləri çıxış etmişlər.

Əli CABBAROV

# Kəngərli səhiyyəsinin xidmət imkanları artmışdır



***Tarixi bir adı özündə yaşadan Kəngərli rayonu Naxçıvan Muxtar Respublikasının ən gənc rayonudur. Dövlət başçısı cənab İlham Əliyevin 19 mart 2004-cü il tarixdə imzaladığı Azərbaycan Respublikasının Qanunu ilə yaradılmış bu rayon bu gün ölkəmizin inkişaf etmiş rayonları sırasındadır. Ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə hazırlanan və ümumi inkişafımızda fundamental baza rolunu oynayan Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin Kəngərli rayonunda ardıcıllıqla həyata keçirilməsi bu bölgənin bir rayon kimi formalaşmasında mühüm rol oynamışdır.***

Hər il rayonda quruculuq işləri gedir, abadlıq işləri aparılır, yeni müəssisələr qurulur, sosial obyektlər istifadəyə verilir. Keçən ay 10 yaşını tamam edən Kəngərli rayonunun quruculuq ərməğanları sırasına bu günlərdə biri də əlavə olundu. Bu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu il Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində aprelin 7-də açılışında iştirak etdiyi Kəngərli Rayon Mərkəzi Xəstəxanasının binasıdır. Bu günlərdə xəstəxana binasının fəaliyyəti ilə daha yaxından tanış olmaq üçün rayona üz tutduq. Yol boyu insan sağlamlığının cəmiyyət üçün əhəmiyyəti və bu qiymətli sərvətin qorunması məqsədilə dövlətimiz tərəfindən həyata keçirilən tədbirlər haqqında düşünürdüm. Məlumdur ki, yalnız sağlam olan bir insan xalqın xeyrinə qurub-yaratmaq üçün özünün yaradıcı imkanlarından tam istifadə edə bilər. Məhz buna görə də müasir dövrdə hər bir dövlətin iqtisadi potensialı və qüdrəti bir sıra mühüm meyarlarla yanaşı, həm də səhiyyə sisteminin inkişaf səviyyəsi ilə ölçülür. Bu gün muxtar respublikamızda bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlərdən istənilən qədər danışmaq olar. Onu da qeyd edək ki, regionumuzda vaxtilə diqqətdən kənarda qalan ucqar dağ kəndlərində belə, bu gün müasir səhiyyə müəssisələri fəaliyyət göstərir. Faktlara nəzər salaq. 2000-2005-ci illərdə muxtar respublikada Gigiyena və Epidemiologiya Mərkəzi, Duzdağ Fizioterapiya Mərkəzi, Əlillərin Bərpa Mərkəzi, "İmplant-dent" Stomatoloji Dispanseri, Mərkəzi Uşaq Xəstəxanası, Darıdağ Arsenli Su Müalicəxanası daxil olmaqla, ümumilikdə, 48 səhiyyə obyekti tikilmiş, 35 tibb ocağında əsaslı təmir-bərpa işləri aparılmış və bu səhiyyə ocaqları müasir tibbi avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. 2005-2010-cu illərdə isə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi, Kəngərli Rayon Mərkəzi Xəstəxanası, Şərur rayonunda ən müasir avadanlıqla təchiz olunan xəstəxana şəhərciyi, Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri, Uşaq Bərpa Mərkəzi, Körpələr Evi, Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi, Doğum Mərkəzi, Onkoloji Mərkəzi üçün yeni binalar, kəndlərdə həkim ambulatoriyaları və feldşer-mama məntəqələri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Bu gün muxtar respublikanın bütün rayonlarında ən müasir səhiyyə ocaqları fəaliyyət göstərir. Son illərdə müasir tələblər səviyyəsində yaradılan tibb ocaqlarından biri də Kəngərli Rayon Mərkəzi Xəstəxanasıdır.

Budur, Kəngərli rayonuna çatmışıq. Bu möhtəşəm xəstəxana binası 30 mindən çox əhaliyə xidmət etmək imkanına malikdir. Xəstəxananın baş həkimi Vaqif Məmmədov bildirdi ki, səhiyyə müəssisəsində tibbin ən son nailiyyətləri olan avadanlıq və cihazlar quraşdırılmışdır. Onu da qeyd edək ki, xəstəxanada 95 nəfərdən ibarət tibbi heyət çalışır.

Öyrəndik ki, qısa zamanda səhiyyə ocağına müraciət edənlərin sayı artır. Ancaq bu, o demək deyil ki, müraciət edənlərin hamısı xəstədir. Artıq rayon sakinləri hər hansı ağır xəstəliyə düçar olanda xəstəxanaya üz tutmurlar. Onlar xəstəxanada yaradılan şərait və onlara göstərilən nümunəvi xidmətdən bəhrələnərək ambulator müayinələrdən keçmək istəyirlər.



Xəstəxananın dializ bölməsi müasir tibbi avadanlıqlarla təchiz edilmişdir. Baş həkim bildirdi ki, yaxın günlərdə dializ xəstələrinin müalicəsinə başlanılacaq. Rayonda neçə illərdir, bu xəstəlikdən əziyyət çəkənlər var. Xəstəxana binasının yenidən qurulması, müasir avadanlıqların quraşdırılması bu xəstəlikdən əziyyət çəkənlərin probleminin həll olunmasına imkan verəcək. Rayon sakinləri yaradılan bu şəraitə görə dövlətimizə minnətdardırlar.

Ginekologiya şöbəsində uşaq və hamilə qadınlara keyfiyyətli tibbi xidmət göstərilməsinin şahidi olduq. Hamilə qadınların vaxtında qeydiyyata alınması, onlara göstərilən patronaj xidməti doğuş fəsadlarının aradan qaldırılmasına xeyli köməklik edir, sağlam uşaqların doğulması ilə nəticələnir. Məhz reallaşdırılan məqsədyönlü tədbirlərin nəticəsidir ki, rayonda ana ölümü sıfra enmiş, doğuşların sayı əvvəlki illərlə müqayisədə artmışdır. Onu da qeyd edək ki, xəstəxanada peyvənd işi yenidoğulmuşlardan başlanılır. Bu iş Poliklinika şöbəsində davam etdirilir. Burada uşaqlar arasında qoruyucu peyvəndlərin vaxtında aparılması diqqət mərkəzində saxlanılır.

Müşahidələrimizə əsasən deyə bilərik ki, həkimlər və tibb bacıları yaradılan şəraitdən düzgün istifadə etməyə çalışırlar. Onlar yaxşı başa düşürlər ki, belə şərait müqabilində xəstələrə nümunəvi xidmət göstərməli, qurulanlardan düzgün və səmərəli istifadə etməlidirlər.

*Kəngərli rayonunda dövlətimizin külli miqdarda vəsait hesabına ərsəyə gətirdiyi bu səhiyyə ocağı ölkəmizdə insan amilinin ön planda dayandığını göstərir. Elə xəstəxanada hansı rayon sakini ilə həmsöhbət olduqsa, onlar belə xəstəxana binasına görə dövlətimizə minnətdarlıqlarını bildirdilər. Niyə də olmasın? Çünki əvvəllər onlar adi bir xəstəlikdən ötrü neçə kilometrlərlə yol getmək məcburiyyətində qalırdılar. İndi isə həm öz görkəmi ilə gözoxşayan, həm də nümunəvi səhiyyə xidməti ilə seçilən mərkəzi xəstəxana rayon əhalisinin sağlamlığının keşiyindədir.*

**Sara ƏZİMOVA**

## Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinə həsr olunmuş tədbir

***Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.***



Tədbiri giriş sözü ilə kitabxananın direktor müavini Rahilə Məmmədova açaraq bildirmişdir ki, A.Bakıxanovun bütün elmi və ədəbi yaradıcılığının əsas qayəsi xalqı maarifləndirmək olmuşdur.

Kitabxananın şöbə müdiri Tamella Əsgərova məruzəsində qeyd etmişdir ki, Azərbaycan tarixinə Abbasqulu ağa Bakıxanov görkəmli maarifpərvər, Azərbaycan tarixşünaslığının elmi əsaslarını qoymuş filosof-alim, jurnalist, filoloq, astronomiya və coğrafiya kitablarının müəllifi kimi daxil olmuşdur. A.Bakıxanovun ən məşhur əsəri "Gülüstani-İrəm" tarixi əsəridir. Əsər Azərbaycan tarixşünaslığının inkişafında böyük rol oynamışdır. Burada Azərbaycan tarixinin qədim zamanlardan 1813-cü ilədək olan dövrü əhatə olunmuşdur.

Sonra məruzə ətrafında Minayə Nəbisoyun, Vəsilə Cəfərovanın çıxışları olmuşdur.

Vurğulanmışdır ki, A.Bakıxanov çoxlu təmsil və avtobioqrafik xarakterli əsərlər də yazmışdır. Onun ərəb və fars dillərində lirik şeirlərdən ibarət divanı da vardır ki, indiyədək araşdırılmamış qalır və hal-hazırda Təbriz Milli Kitabxanasında qorunur.

Sonda "Abbasqulu ağa Bakıxanov – 220" adlı sərgiyə baxış olmuşdur.

**Sona MİRZƏYEVA**

## Oğullar əsgər gedir

*Ordubad və Culfa rayonlarında gənclərin hərbi xidmətə yola salınması mərasimləri keçirilib*

***Dünən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ordubad Rayon Şöbəsində gənclərin ordu sıralarına yola salınması mərasimi keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə şöbənin rəisi vəzifəsini icra edən kapitan Vüqar Rəhimli çıxış edərək bildirib ki, gənclərin ordu sıralarında şərəflə xidmət keçməsi, Vətənin keşiyində ayıq-sayıq dayanması, ilk növbədə, hərbi-vətənpərvərlik tərbiyəsinin düzgün qurulmasından asılıdır. Məhz buna görə son illər muxtar respublikada bu məsələyə diqqət artırılıb.

Azərbaycanda, eləcə də muxtar respublikada ordu quruculuğuna göstərilən dövlət qayğısından da danışan Vüqar Kərimli Vətən qarşısında borcunu yerinə yetirməyə yola düşən çağırışçıların valideynlərini təbrik edib. O, əmin olduğunu bildirib ki, gənclər ordu sıralarında ləyaqətlə xidmət keçməklə, hərbi texnikanın sirlərinə dərindən yiyələnməklə, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaqla valideynlərinin başını uca edəcəklər. Bildirilib ki, bu gün Azərbaycanın güclü və qüdrətli ordusu vardır və bu ordu istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir. Son illərdə orduya ayrılan xərclər, ordu quruculuğu sahəsində görülən işlər, hərbi sənaye kompleksinin inkişafı bunu deməyə əsas verir.

Mərasimdə Ordubad Rayon Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Fərrux Nağızadənin, rayon İcra Hakimiyyətinin şöbə müdiri Etibar İsmayılovun, Təhsil Şöbəsinin əməkdaşı Əyyar Səfərovun, Gənclər və İdman İdarəsinin rəisi Ramil Həsənquliyevin çıxışları olub. Çıxış edənlər Azərbaycan Ordusunun şanlı tarixindən, ulu öndər Heydər Əliyevin ikinci dəfə ölkə rəhbərliyinə qayıdışından sonra ordu quruculuğu sahəsindəki misilsiz xidmətlərindən söhbət açıblar. Vurğulanıb ki, son illər ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Milli Ordumuz regionun ən güclü və qüdrətli ordusuna çevrilib. İndi bu ordu torpaqlarımızı düşmən tapdağından azad etməyə tam hazırdır və bununla bağlı Ali Baş Komandanımızın əmrini gözləyir.

Valideynlər adından danışan Səttar Əliyev ordu sıralarına yola düşən gənclərə xoş arzularını bildirib, övladının hərbi xidmətə yollanmasından böyük qürur hissi keçirdiyini deyib.

Gənc çağırışçılardan Orxan Xudiyev Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərin tapşırıqlarını layiqincə yerinə yetirəcəklərinə söz verib. Bu günün onun həyatında ən əlamətdar hadisə olduğunu bildirən gənc çağırışçının çıxışında belə bir əminlik ifadə olunub ki, əgər torpaqlarımızın sülh yolu ilə azad olunması istiqamətində aparılan danışıqlar nəticə verməsə, onda Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə gənclər düşmən üzərində layiqli qələbə çalıb qalib döyüşçü kimi evə qayıdacaqlar.

Çıxışlardan sonra çağırışçılar təntənəli şəkildə hərbi xidmətə yola salınıblar.

Həmin gün Culfa rayonunda da gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib.

**Muxtar MƏMMƏDOV**

***Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin qarşısında Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü münasibətilə tədbir keçirilmişdir. Tədbiri Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Həsən Kərimov açaraq bu günün əhəmiyyətindən danışmışdır.***

## Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü qeyd edilib



Qeyd olunmuşdur ki, ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyinin bütün dövrlərində xalqımızın tarixinin öyrənilməsi, tarixi və mədəni irsin qorunması sahəsində böyük işlər həyata keçirilmişdir. Ulu öndər tarix və mədəniyyət abidələrinin qorunmasının vacibliyini qeyd edərək deyirdi: ***"Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir. Dövlət tarix və mədəniyyət abidələrinin qorunmasına təminat verir, onların elmi tədqiqi üçün zəruri qanunların yaradılmasını, fəaliyyətini təmin edir, abidələrdən səmərəli istifadə üçün şərait yaradır".***

Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən tarixi abidələrimizin bərpası, qorunması, təbliği və tədqiqi sahəsində böyük işlər həyata keçirilir. Dövlət başçısının 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" bunun bariz ifadəsidir.

Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi Nizami Rəhimov çıxışında qədim Naxçıvanın tarix və mədəniyyət abidələri ilə zənginliyindən söhbət açmışdır. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamı mədəni irsimizin öyrənilməsi və təbliği baxımından böyük əhəmiyyətə malikdir.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Toğrul Xəlilov Naxçıvan abidələrinin öyrənilməsində qazanılmış nailiyyətlərdən söhbət açmışdır. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı sərəncamlar tarixi abidələrimizin öyrənilməsi, tədqiqi və qorunması sahəsində böyük işlərin görülməsinə şərait yaratmışdır. Ali Məclis Sədrinin 2001-ci il aprelin 26-da imzaladığı "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncama əsasən, Gəmiqaya abidəsinə arxeoloji ekspedisiya təşkil edilmiş, yeni qayaüstü təsvirlər və arxeoloji abidələr aşkar edilərək tədqiq olunmuşdur.

Vurğulanmışdır ki, muxtar respublikamızda tarixi abidələrimizin öyrənilməsi ilə yanaşı, onların təmiri və bərpası diqqət mərkəzində saxlanılır. Son 18 ildə 60-dan çox tarix və mədəniyyət abidəsinin bərpası və təmiri bu işlərin ardıcıl olduğunu göstərir.

Tədbirin sonunda Açıq Səma Altında Muzeyin ekspozisiyasına baxış olmuşdur.

**Əli RZAYEV**

# 108 il əvvəl nəşrə başlayan

## “Molla Nəsrəddin”i zəmanə özü yaratdı”



***Azərbaycan ədəbi-ictimai fikrinin çoxəsrlik tarixində əhəmiyyətli yer tutan, milli-demokratik mətbuatın zirvəsi olan “Molla Nəsrəddin” jurnalının birinci sayı 1906-cı il aprel ayının 20-də Tiflisdə işıq üzü görmüşdür. 1906-1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda nəşr edilən jurnalın redaktoru və müəllifi görkəmli dramaturq Cəlil Məmmədquluzadə olmuşdur. Onun səyi ilə satirik jurnalın 25 il ərzində 748 nömrəsi (340-ı Tiflisdə, 8-i Təbrizdə, 400-ü Bakıda) çapdan çıxmışdır. Naxçıvan torpağının yetirdiyi dahi simalardan biri olan Cəlil Məmmədquluzadənin öncüllük etdiyi “Molla Nəsrəddin” jurnalının Azərbaycan mətbuatında əhəmiyyətli yeri olmuşdur.***

“Molla Nəsrəddin” jurnalının ətrafında Azərbaycan xalqının mütərəqqi qüvvələri, demokratik düşüncəli insanlar – Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Əli Nəzmi, Əliqulu Qəmküsar, Məmməd Səid Ordubadi, Mirzəli Möcüz Şəbüstəri və başqa şair, yazıçı və jurnalistlər, o cümlədən Oskar Şmerlinq, İ.Rotter, Əzim Əzimzadə kimi rəssamlar cəmləşmişdilər. Ağılın ziyası olan, düşüncənin sönməz işığı, nuru olan “Molla Nəsrəddin” jurnalının ətrafına toplaşan pərvanələr bu ziyanın daha da şəfəqlənməsində böyük rol oynadılar, onlar öz əqidələri uğrunda bütün varlıqları ilə mübarizə apardılar.

“Molla Nəsrəddin” jurnalını XX yüzilliyin əvvəllərindəki ictimai-siyasi proseslər meydana gətirmişdi. Azərbaycan satirik poeziyasının zirvəsində dayanan Mirzə Ələkbər Sabir Azərbaycan tənqidi-realist ədəbiyyatının satirik şeir qolunu yüksək səviyyədə təmsil etdi, Cəlil Məmmədquluzadənin, Məmməd Səid Ordubadinin publisistikası isə jurnalın təməlini daha da möhkəmlətdi. Bu səbəbdən də biz “Hophopnamə”ni, bütövlükdə, “Molla Nəsrəddin” satirik şeir məktəbinin zəfəri kimi qiymətləndirə bilərik. “Molla Nəsrəddin” ədəbi məktəbində satirik nəsr üslubunu, əsasən, Cəlil Məmmədquluzadə və Əbdürrəhim bəy Haqverdiyev formalaşdırmışlar. Üslubları fərqli xüsusiyyətlərə malik olsa da, bu iki sənətkarı bir əqidə birləşdirirdi. Cəlil Məmmədquluzadənin “Poçt qutusu”, “Usta Zeynal”, “Nigarançılıq”, “Yan tütəyi”, “Saqqallı uşaq” hekayələri ilə Əbdürrəhim bəy Haqverdiyevin “Şeyx Şaban”, “Bomba”, “Mirzə Səfər”, “Həmşəri pasportu” hekayələri mövzu və ideya etibarilə bir-birlərinə çox yaxındırlar.

“Molla Nəsrəddin” jurnalı sayəsində Əzim Əzimzadə Azərbaycanda milli karikatura sənətinin banisi səviyyəsinə yüksəlmiş, Xəlil Musayev, İsmayıl Axundov, Hüseyn Əliyev, Qəzənfər Xalıqov, Nəcəfqulu və başqaları “Molla Nəsrəddin” karikatura məktəbinin görkəmli nümayəndələri kimi məşhurlaşmışlar.

Cəlil Məmmədquluzadə Azərbaycan mətbuatı tarixində həm də Azərbaycan satirik publisistikasının yaradıcısı kimi tanınmışdır. Böyük ədibin “Molla Nəsrəddin” jurnalının birinci sayında nəşr olunmuş “Sizi deyib gəlmişəm” məqaləsi təkcə mollanəsrəddinçi publisistikanın deyil, bütövlükdə, milli satirik publisistikanın mayakıdır. Cəlil Məmmədquluzadənin “Bizim obrazovannılar”, “Niyə məni döyürsünüz”, “Axund və keşişin vəzi”, “Mikroblar”, “Necə qan ağlamasın”, “Bikarlar bayramı”, “Rus məxrəci”, “Millət”, “Tüstü”, “Rəndə”, “Yer yoxdur”, “Neft fəhlələri”, “İspalkom imtahanı”, “Şura qadınları” və sair publisist əsərləri Azərbaycan mətbuatına yeni nəfəs gətirmişdir. Cəlil Məmmədquluzadənin bədii yaradıcılığı kimi, mətbu fəaliyyəti və publisistikası da Azərbaycançılıq ideyaları təməlində inkişaf etmişdir. Onun “Azərbaycan” məqaləsi bu baxımdan olduqca əhəmiyyətlidir.

“Molla Nəsrəddin” jurnalının taleyində böyük publisist Ömər Faiq Nemanzadənin rolu və xidmətləri ayrıca qeyd edilməlidir. Onun “Dərdimənd” təxəllüsü ilə qələmə aldığı “Bizə hansı elmlər lazımdır”, “Cəhrəçi xala”, “Bir arvadın cavabı”, “Oyun-oyuncaq”, “Axır çərşənbə”, “Qəribə qutu” və sair kimi məqalə və felyetonları dəyərli publisistika nümunələridir.

Azərbaycan jurnalistikası “Molla Nəsrəddin”in publisistika ənənələri ilə daha da zənginləşmişdir. Naxçıvan ədəbi mühitinin tədqiqatçılarından olan akademik İsa Həbibbəyli “Molla Nəsrəddin” jurnalının keçdiyi şərəfli yolu gələcəyə daşımaq baxımından əhəmiyyətli tədqiqatlara imza atmışdır.

Mollanəsrəddinçilər dünyada baş verən hadisələri yaxından izləyir, bu hadisələrə özünəməxsus bir şəkildə münasibət bildirirdilər. Bu səbəbdən də “Molla Nəsrəddin” jurnalı təkcə Azərbaycanda deyil, bir çox ölkələrdə sevilərək oxunmuşdur.

Cəlil Məmmədquluzadə 1924-cü ildə “Kommunist” qəzetində öz qələm dostlarına ehtiramını bildirərək yazırdı: “Molla Nəsrəddin” tək bir nəfər müəllifin əsəri deyil. “Molla Nəsrəddin” bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin məcmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam”.

“Molla Nəsrəddin” jurnalı doğma dilimizi yad sözlərlə zəhərləyənləri, onu zorla xarici dillərlə əvəz etməyə çalışanları tənqid etmiş, qadın azadlığı məsələlərinə bəşəri aspektdən yanaşmış, qadınların müdafiəçisi kimi çıxış edərək qızların təhsilinin qayğısına qalmışdır.

“Molla Nəsrəddin” jurnalı Şərq ölkələrində satirik mətbuatın, ədəbiyyatın və demokratik ictimai fikrin inkişafına ciddi təkan vermişdir. Hətta indinin özündə belə, jurnalın ideyalarının davamçıları mövcuddur.

Bu da onu deməyə əsas verir ki, nəşrə başlamasından 108 il keçməsinə baxmayaraq, “Molla Nəsrəddin” jurnalı bu gün də öz ideyaları ilə yaşayır. Jurnalın cəhalət mühitinin aydınlanması uğrunda apardığı mübarizə maarif ideyalarının yayılması ilə nəticələndi. Və bu gün o işığın, maarifin var olması jurnalın uğurudur.

✍ **Nərgiz İSMAYILOVA**

# Gənclər arasında “Nuh yurdu” intellektual oyununun Naxçıvan Muxtar Respublikası üzrə zona birinciliyi

Aprelin 18-də Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin və Naxçıvan Muxtar Respublikası “Gənclərin İntellektual İnkişaf Mərkəzi” İctimai Birliyinin təşkilatçılığı ilə gənclər arasında “Nuh yurdu” intellektual oyununun Naxçıvan Muxtar Respublikası üzrə zona birinciliyi keçirilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri, Naxçıvan Muxtar Respublikası “Gənclərin İntellektual İnkişaf Mərkəzi” İctimai Birliyinin sədri Canməmməd Canməmmədov çıxış etmişdir. Qeyd olunmuşdur ki, gənclər arasında “Nuh yurdu” intellektual oyunu Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədar təsdiq olunmuş Tədbirlər Planına əsasən keçirilir. Oyunun keçirilməsində məqsəd gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və bacarığı artırmaq, eləcə də onların asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarətdir. İntellektual oyunun keçirilməsi ilə bağlı təşkilat komitəsi yaradılmış, yaşı 17-dən 29-dək olan gənclərdən ibarət hər birində 5 oyunçu olmaqla, 31 komandanın iştirakı təmin edilmişdir. Oyunun keçirilmə qaydaları ilə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verilərək bildirilmişdir ki, hər bir oyunda 4 komanda iştirak edir.

Sonra püşkatma keçirilmiş və oyunda iştirak edən 31 komandanın bir qismi “Gənclik” Mərkəzində, digərləri isə Gənclər Mərkəzində biliklərini sınamışlar.



Gənclər arasında keçirilən “Nuh yurdu” intellektual oyununun Naxçıvan Muxtar Respublikası zona birinciliyinin qaliblərinə təşkilatçılar tərəfindən diplom, fəxri fərman və kuboklar verilmişdir.

Onu da qeyd edək ki, birinci, ikinci yerləri tutan Naxçıvan Dövlət Universitetinin “Əlincə”, Naxçıvan Özəl Universitetinin “Vətən” komandaları və ən yüksək nəticə göstərən 5 nəfər oyunçu “Xəmsə” milli intellektual oyununun Quba şəhərində gənclər arasında keçiriləcək VII Azərbaycan çempionatında iştirak etmək hüququ qazanmışlar.

# Şahmat birinciliyinə start verilib

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə Babək rayonundakı ümumtəhsil məktəblərinin şagirdləri arasında şahmat üzrə rayon birinciliyi keçirilir. Dünən Babək Rayon Uşaq-Gənclər Şahmat Məktəbində keçirilən yarışın birinci zona turnirinə start verilib. Yarış başlanmazdan əvvəl rayon İcra Hakimiyyətinin nümayəndəsi Yusif Mahmudov, Təhsil Şöbəsinin əməkdaşı Nicat Fətullayev, Babək qəsəbə tam orta məktəbinin direktoru Əli Hacıyev çıxış edərək muxtar respublikamızda gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün həyata keçirilən tədbirlərdən, idmana, o cümlədən şahmatın inkişafına göstərilən qayğıdan bəhs ediblər.

Sonra oyunun baş hakimi Zakir Quliyev yarışın qaydaları barədə məlumat verib. Hər bir yarış iştirakçısı şahmat taxtası arxasına keçərək bacarığını nümayiş etdirib.

Qeyd edək ki, yarışda rayonun 6 ümumtəhsil məktəbinin şagirdləri iştirak ediblər. Qaliblər may ayında keçiriləcək final mərhələsinə vəsiqə qazanıblar.

**Xəbərlər şöbəsi**

# Azərbaycan Respublikası Təhsil Nazirliyi

## *Naxçıvan Dövlət Universiteti aşağıdakı kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

**Kafedralar üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün**

1. *İnformatika*

**Kafedralarda boş olan vəzifələri tutmaq üçün**

*1. Azərbaycan tarixi – dosent – 1 yer*

*2. Ümumi tarix – dosent – 1 yer (0,5 şt), dosent – 1 yer*

*3. Coğrafiya – dosent – 1 yer (0,5 şt), baş müəllim – 2 yer*

*4. Fəlsəfə və sosial iş – dosent – 1 yer (0,5 şt), baş müəllim – 3 yer*

*5. Fənlərin tədrisi metodikası – dosent – 1 yer (0,5 şt)*

*6. Jurnalistika və dünya ədəbiyyatı – dosent – 1 yer (0,5 şt), dosent – 1 yer*

*7. Nəqliyyat mühəndisliyi – dosent – 1 yer (0,5 şt), dosent – 1 yer, baş müəllim – 1 yer*

*8. Xalq çalğı alətləri – müəllim – 2 yer*

*9. Memarlıq – baş müəllim – 1 yer*

*10. Təsviri incəsənət – müəllim – 1 yer, baş müəllim – 1 yer*

*11. Musiqi təlimi – baş müəllim – 2 yer, müəllim – 1 yer*

*12. Vokal və dirijorluq – dosent – 1 yer (0,5 şt)*

*13. Rus dili və ədəbiyyatı – dosent – 1 yer (0,5 şt)*

*14. Ümumi təbabət və gigiyena – müəllim – 1 yer (0,5 şt), baş müəllim – 1 yer*

*15. Azərbaycan dilçiliyi – dosent – 1 yer (0,5 şt)*

*16. Ümumi riyaziyyat – müəllim – 1 yer, dosent – 1 yer*

*17. Rabitə və informasiya – müəllim – 1 yer*

*18. İqtisadiyyat – dosent – 1 yer, müəllim – 1 yer*

*19. Mühasibat uçotu və maliyyə – dosent – 1 yer (0,5 şt), baş müəllim – 1 yer*

*20. Beynəlxalq münasibətlər – dosent – 1 yer (0,5 şt), baş müəllim – 1 yer*

*21. Dünya iqtisadiyyatı – baş müəllim – 1 yer*

*22. Beynəlxalq münasibətlər – dosent – 1 yer*

*23. Ümumi və nəzəri fizika – baş müəllim – 1 yer*

*24. Orkestr alətləri və dirijorluq – dosent – 1 yer, baş müəllim – 1 yer*

*25. Bəstəkarlıq – dosent – 1 yer (0,5 şt)*

*26. Fortepiano – dosent – 1 yer, baş müəllim – 1 yer*

*27. Kitabxanaçılıq – dosent – 1 yer (0,5 şt)*

*28. İngilis dili – baş müəllim – 1 yer*

*29. Fiziki tərbiyə və idman oyunları – dosent – 2 yer*

*30. Çağırışaqədərki hazırlıq və mülki müdafiə – baş müəllim – 1 yer*

*31. Tibbi klinik fənlər – dosent – 1 yer (0,5 şt)*

*32. Bələdiyyə və turizm – dosent – 1 yer.*

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

***Ünvan: Naxçıvan şəhəri, universitet şəhərciyi***

***Telefon: 545-23-66***

# Ümumdünya Hemofiliya Günü Naxçıvanda könüllü qanvermə aksiyası ilə qeyd edilmişdir

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, aprelin 17-də Ümumdünya Hemofiliya Gününə həsr olunmuş tədbir keçirilmişdir. Bu əlamətdar gün Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində könüllü qanvermə aksiyası ilə qeyd edilmişdir. Mərkəzin baş həkiminin müavini Zaur Həsənov hemofiliya xəstəliyi barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, hemofiliya insan qanında laxtalanma faktorlarının çatışmazlığı nəticəsində əmələ gələn, anadan, əsasən, oğlan uşaqlarına ötürülən xəstəlikdir. Onun yaranmasının əsas səbəbi qohum nikahları, radiasiyalı ətraf mühit, qida və tütün məmulatlarının təsiridir. Respublikamızda belə xəstələr dövlət qayğısı ilə əhatə olunmuşlar. Belə ki, ölkəmizdə hemofiliya və talassemiya irsi qan xəstəliyi üzrə dövlət proqramı qəbul edilmişdir. Proqramın məqsədi hemofiliyalı xəstələrə göstərilən tibbi yardımın keyfiyyətinin artırılması, həyat şəraitinin yaxşılaşdırılması, xəstələrdə əlillik və ölümün azaldılması, hemofiliyanın fəsadlarının diaqnostikası, müalicə və profilaktikasının təkmilləşdirilməsi, xəstələrdə qanaxmanın profilaktikası məqsədilə faktor preparatları ilə müalicənin təşkili və digər tədbirlərin görülməsindən ibarətdir.

Bu istiqamətdə muxtar respublikamızda da ardıcıl tədbirlər həyata keçirilir. İl ərzində hemofiliyalı xəstələr üçün bir neçə dəfə qanvermə aksiyasının keçirilməsi bu sahədə davam etdirilən tədbirlərin tərkib hissəsidir. “Qan ver, yaşat”, “Qan ver, xilas et” devizi altında keçirilən belə aksiyalar irsi qan xəstəliyindən əziyyət çəkən uşaq və yeniyetmələr üçün mühüm əhəmiyyət kəsb edir.

Sonra “Sən də bir həyat ver” devizi altında qanvermə aksiyası keçirilmişdir. Bir neçə saat davam edən aksiyada 18 donordan 5,4 litr qan götürülərək qrupları müəyyənləşdirilmiş, birli və ikili torbalarda mərkəzin qan bankına təhvil verilmişdir. Hazırda qan bankında xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılmışdır. Tələbatdan artıq donor qanından plazma hazırlanaraq qan bankında saxlanılacaqdır. Qan bankına toplanan qanın plazma hissəsi hemofiliyadan əziyyət çəkən xəstələrə, eritrositar kütləsi isə talassemiyalı xəstələrə köçürüləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Abbaslı Oqtay Əli oğlunun adına olan avtomobilin 85-BV-844 nömrəsi itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının kollektivi müvəkkil Ülkər Bayramovaya, qayınanası **XURŞUD XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 362